“Filoloji tərcümə” layihəsi



## ÜBEYD ZAKANİ
**(? - 1371)**

**Daha çox həcv və lətifələriylə tanınmış ərəb əsilli İran şairi. İbtidai təhsilini Şirazda tamamlayan şair bir müddət Qəzvində qazılıq etmişdir. Şairi bütün müsəlman Şərqində məşhurlaşdıran isə onun “Siçan və Pişik” adlı mənzum təmsilidir. XIX əsrdə bu təmsili görkəmli Azərbaycan şairi Seyid Əzim Şirvani poetik tərcümə etmişdir. Lakin Seyidin tərcüməsi daha çox yaradıcı tərcümə kimi uğurludur. Bu sayda isə təmsilin filoloji tərcüməsini təqdim edirik.**

## SİÇAN VƏ PİŞİK

Əgər sənin ağlın, biliyin və düşüncən varsa,
gəl Pişiklə Siçanın rəvayətini dinlə.

Sənin üçün bir hekayə oxuyum ki,
onun mənasına heyran qalasan.

Ey ağıl və bilik sahibi olan müdrik!
Siçanla Pişiyin qissəsini oxu.

Nəzmə çəkilmiş “Siçanla Pişik” qissəsinə
qulaq as, (o,) yupyumru mirvari kimidir.

Fələyin hökmü ilə Kirmanda
əjdaha kimi bir pişik var idi.

Qarnı nağara, sinəsi qalxan kimi.
Quyruğu şir quyruğu, caynağı pələng caynağı kimi.

Nərə çəkdiyi vaxt nərəsindən
yırtıcı şir qorxuya düşərdi.

Hansı süfrəyə ayaq bassaydı,
şir oradan qaçardı.

Bir gün siçan ovlamaq üçün
şərab evinə girdi.

Çöldə pusqu quran oğru kimi
küpün arxasında pusqu qurdu.

Qəfil bir siçan çığıraraq,
bir divardan mey küpünün üstünə sıçradı.

Başını küpə dayayaraq mey içdi,
nərildəyən şir kimi məst oldu.

Dedi: Pişik hanı ki, (onun) başını qoparım,
dərisinə saman təpim?

Pişik meydanda mənimlə üz-üzə gəlsə,
qabağımda it kimi olar.

Pişik bunu eşitdi və heç nə demədi.
Caynaq və dişlərini əyələdi.

Qəfildən dəvə ovlayan bir pələngtək
sıçrayıb siçanı tutdu.

Siçan dedi: Mən sənin qulunam.
Bu günahlarımı əfv et.

Pişik dedi: Az yalan danış,
mən yalana və məkrlərə aldanmaram.

Sənin hər dediyini eşidirdim.
(Mənə deyirdin ki,) arvadın müsəlman əxlaqsızıdır.

Pişik o siçanı öldürüb yedi,
sonra da nazla yeriyərək məscidə getdi.

Əl-üzünü yuyub məsh çəkdi.
Molla kimi zikr oxuyurdu:

Ey Yaradan Allah! Mən tövbə etdim.
(Bir də) siçanı dişlərimlə parçalamaram.

Ey Yaradan, bu nahaq qanın əvəzində
iki batman çörək sədəqə verərəm.

O qədər acizlik göstərib zarıdı ki,
ağlamaq həddinə gəlib çatdı.

Minbərin arxasında bir siçan var idi.
Tez bu xəbəri siçanlara apardı.

Muştuluğumu verin ki, Pişik tövbə etdi.
Zahid, abid və müsəlman oldu.

O, Tanrı məddahı kimi məsciddə
namaz və niyaz edirdi, zarıyırdı.

Bu xəbər siçanlara çatanda
hamısı sevinib güldü.

Yeddi seçilmiş siçan sıçradı,
hər biri bir kətxuda və kəndli (kimi) idi.

Pişik üçün hər biri sevgi ilə
cürbəcür hədiyyələr götürdü.

Biri əlində şərab şüşəsi,
o biri qızardılmış quzular.

Biri kişmişlə dolu kiçik bir teşt,
o biri xurmayla dolu bir tabaq.

Biri əlində pendirlə dolu bir qab,
o biri qatıq, kərə yağı və çörək.

Biri də başında üstünə Oman limonunun
suyu sıxılmış plov xonçası.

O siçanlar salam-kəlam və ehsanla
pişiyin yanına getdilər.

Min dəfə ədəb göstərərək ərz etdilər ki,
sənin yoluna bütün canlar fəda!

Biz əmrə tabe olanlar
sənin hüzuruna layiq bir peşkəş hazırlamışıq.

Pişik siçanları görən kimi dedi:
Sizin səmada ruziniz var.*

Mən uzun müddət ac dolandım,
bu gün isə ruzim bol oldu.

O biri günlər Rəhmanın
rizası üçün oruc idim.

Hər kim ki, Tanrı üçün iş görər,
şübhəsiz, ruzisi bol olar.

Ondan sonra dedi ki, ey dostlar,
bir neçə addım irəli buyurun.

Siçanların hamısı bədənləri
söyüd kimi əsə-əsə irəli gedirdilər.

Pişik meydan (döyüş) günündə
önə atılanlar kimi qəfildən siçanların üstünə atıldı.

Beş seçilmiş siçanı tutdu.
Onların hərəsi bir kəndxuda və xan idi.

İkisini bu pəncəsiylə, ikisini o biri pəncəsiylə,
birini də nərildəyən şir kimi ağzıyla (tutdu).

Canlarını qurtaran digər iki siçan
tez (bu) xəbəri siçanlara çatdırdı ki,

Niyə oturmusunuz, ey siçanlar?
Kül başınıza, ey cavanlar!

Pişik beş başçı siçanı
caynaqlarıyla və ağzıyla parçaladı.

Siçanlar bu müsibətdən və qəmdən
bütünlüklə qara geyindilər.

Başlarına kül ələyə-ələyə
“Başçı siçanlardan heyif!” dedilər.

Ondan sonra sözü bir yerə qoydular ki,
biz sultanın oturduğu paytaxta gedirik.

Şaha halımızı, pişik tayfasının
sitəmlərini ərz etmək üçün.

Siçanlar şahı taxtda əyləşmişdi.
Uzaqdan siçan sürüsünü gördü.

Hamısı onun qarşısında təzim etdi:
Ey (bu) dövranın şahənşahı!

Pişik bizlərə zülm edib,
ey şahənşah, (sənə) qurban olum!

(Əvvəl) ildə birimizi tuturdu.
İndi isə hərisliyi çoxalıb.

Tövbə edib müsəlman olduğu
bu zamandan bəri beş-beş tutur.

Elə ki, ürəklərinin dərdini öz şahlarına dedilər,
şah buyurdu ki, ey əzizlər!

Mən Pişikdən (elə bir) qisas alacağam ki,
(həmən qisas bu) dövranın dastanına çevriləcək.

Sonra bir həftə üç min üç yüz siçandan
ibarət bir ordu düzəltdi.

Hamısı nizələrlə, oxla, yayla.
Hamısı iti qılınclarla.

Bir tərəfdən piyada alaylar
ortalıqda qılınc oynadırdılar.

Elə ki, Xorasan, Rəşt və Gilandan
ordu toplandı,

Ağıllı, ürəkli və igid olan
iri bir siçan ordunun başçısı oldu.

Dedi ki, bizdən biri
Pişiyin yanına - Kirman şəhərinə getməlidir.

(Və deməlidir ki), ya paytaxta hüzura gəlsin,
ya da döyüşə hazır olsun!

Qədimdən elçi olan bir siçan
Kirman şəhərinə yola düşdü.

Pişiyi yumşaqlıqla başa saldı ki,
mən şahların elçisiyəm.

Sizin üçün xəbər gətirmişəm ki,
siçanların şahı döyüş qərarı verib.

Ya paytaxta hüzura get,
ya da döyüşə hazır ol!

Pişik dedi ki, ey axmaq siçan,
mən Kirmandan bayıra çıxmaram.

Amma gizlincə pişiklərdən
böyük bir ordu düzəltdi.

İsfahan, Yəzd və Kirmandan
ildırım sürətli, ov şiri kimi pişiklər.

Pişik ordusu hazır olan kimi
meydana getmək əmri verildi.

Siçan ordusu səhra yolundan,
pişik ordusu isə dağlıqdan.

Hər iki ordu Fars çölündə
igidcəsinə döyüşdülər.

O vadidə döyüş şiddətləndi.
Hər iki tərəf Rüstəm kimi döyüşürdü.

O qədər siçan və pişik öldürüldü ki,
asanlıqla saya-hesaba gəlməz.

Pişik şir kimi güclü həmlə etdi,
sonra da siçanların ürəyinə vurdu.

Siçanlardan biri Pişiyin atını təqib etdi,
Pişik yəhərdən yıxıldı.

Siçanların arasına “Pəhləvanları tutun!”
deyə bir çaxnaşma düşdü.

Siçanlar fəth və zəfər üçün
çoxlu şadyanalıq təbili çaldılar.

Siçanların şahı filin belinə mindi,
önündən və arxasından ordu nərə çəkirdi.

Pişiyin hər iki əlini
kələf və kəndirlə bir-birinə bağladılar.

Şah dedi ki, bu üzüqara,
nadan köpəyi dara çəksinlər.

Pişik siçanların şahını görəndə
qeyrəti qazan kimi qaynadı.

Bir aslan kimi dizi üstdə oturdu,
o kəndiri dişləri ilə qopardı.

Siçanları götürüb yerə (elə) vurdu ki,
yerlə yeksan oldular.

Ordu bir tərəfdən qaçdı,
şah da o biri tərəfdən götürüldü.

Fil də, fili sürən də, xəzinə də,
tac da, taxt da, eyvan da ortadan yox oldu.

Bu əcaib və qəribə hekayə
Übeyd Zakaninin yadigarıdır.

Canım, zəmanədə şad olmaq üçün
bu hekayədən öyüd al.

Əlqərəz, “Siçanla Pişiy”i oxumağın
müddəasını dərk et, oğulcan.

---

** Zariyat surəsi, ayə 22*

**Fars dilindən tərcümə edən:
Məhəmməd Nuri**